Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Xoşbəxt uşaqlar xoşbəxt gələcək deməkdir

**Uşaq hüquqlarının müdafiəsi ilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı - 2023**

**Tərtibçi:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Xoşbəxt uşaqlar xoşbəxt gələcək deməkdir -** Uşaq hüquqlarının müdafiəsi ilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed.R.Məmmədli; ixt.red. və burax.məsul Ş. Qəmbərova;- Bakı:F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2023. – 58 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2023**

# AZƏRBAYCANDA UŞAQ HÜQUQLARI

Uşaqlar bu dünyanın təməlidir. Bu səbəblə də onları ən yaxşı şəkildə yetişdirməli, şəxsiyyət olaraq formalaşmasında əlimizdən gələn hər cür köməkliyi göstərməliyik. Xoşbəxt uşaqlar xoşbəxt gələcək deməkdir. Məlum olduğu kimi bu məsum və saf varlıqlar hansı mühitdə, necə bir ailədə dünyaya göz açsalar şəraitə uyğun da davranıb o şəkildə formalaşırlar. Buna görə də hər bir valideyn daha sonra isə bütün bir cəmiyyət usaq huquqları haqqında məlumat sahibi olmalıdır ki, onların hüquqlarını əlindən almadan onlar üçün ən yaxşısını edə bilsin.

Ölkəmizdə uşaqlara qayğı böyükdür. Dövlət tərəfindən onların inkişafı üçün müxtəlif kurslar, məktəblər və s kimi mərkəzlər açılmışdır. Respublikamızda hər bir uşağın məcburi olaraq təhsil almasına çox diqqət göstərir. Məhz bu səbəblədir ki, ölkəmizdə yazıb-oxumağı bacaran kütlə digər ölkələrlə müqayisə edildikdə, çox böyük üstünlüyə sahibdir. Demək olar ki, Azərbaycanda oxuyub-yazmağı bacarmayan çox az faiz insana rast gəlmək mümkündür.

Uşaq hüquqlarının müdafiəsi, onların layiqli insan kimi yetişməsi, zəruri ehtiyaclarının dolğun şəkildə ödənməsi Azərbaycan Respublikasında həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Uşaqlarla bağlı siyasətin əsası 1993-cü ildən ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Bu sahənin fəaliyyətini tənzimləyən milli qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə ardıcıl islahatlar həyata keçirilmiş, respublikamız uşaq hüquqlarının təminatı ilə bağlı

bir sıra beynəlxalq sazişlərə, o cümlədən 1994-cü ildə BMT-nin Uşaq Hüquqları Konvensiyasına qoşulmuşdur.

1999-cu ildə isə “Uşaq hüquqları haqqında” və “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının qanunları qəbul edilmişdir. Azərbaycan Prezidenti İlham Əliyev uşaq hüquqları sahəsində vahid dövlət siyasətinin həyata keçirilməsi və qarşıda duran təxirəsalınmaz vəzifələrin düzgün, operativ həlli üçün hələ 2006-cı il fevralın 6-da Qadın Problemləri üzrə Dövlət Komitəsinin əsasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması haqqında fərman imzalamış, uşaqları cəmiyyətin əsas özəyi, sağlam təməli kimi dəyərləndirdiyini nümayiş etdirmişdir. Respublikanın ən müxtəlif bölgələrində 237 müasir tipli orta məktəb inşa olunaraq istifadəyə verilmiş, “Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı” və “Məktəbəqədər uşaq tərbiyə müəssisələrinin yenidən qurulması” layihəsi çərçivəsində 40-a yaxın körpələr evi, bağça və internat məktəbi əsaslı təmir olunmuşdur. Dövlət başçısının 2008-ci il 22 dekabr tarixli sərəncamı ilə 2009-cu ilin “Uşaq ili” elan edilməsi uşaq hüquqları sahəsində həyata keçirilən dövlət siyasətinin ardıcıl və məqsədyönlü xarakter daşıdığını bir daha nümayiş etdirmişdir. 2009-cu ilin ötən 9 ayında aidiyyəti dövlət qurumları tərəfindən proqramın reallaşdırılması istiqamətində bütün zəruri tədbirlər həyata keçirilmişdir. Bu gün respublikamızda uşaq hüquqları beynəlxalq hüquq və ölkə qanunvericiliyi normalarına əsasən qorunur. Azərbaycan dövlətinin yeritdiyi siyasət BMT-nin Uşaq Hüquqları Konvensiyasının tələblərinə tamamilə cavab

verir. Onlar daim Azərbaycan dövlətinin himayəsi və qayğısı ilə əhatə olunurlar.

Qədim yunan və Roma filosofları insan hüquqlarını, insanın şəxsi həyatını ictimai mənafedən və dövlətin siyasi maraqlarından üstün tutmuşlar. Onların ideyalarına görə, insan və cəmiyyətin maraqlarının qarşılaşmasında aparıcı rolu insan hüquqları təşkil etməli idi. Lakin uzun müddət cəmiyyətin maraqları insanın fərdi maraqlarından öndə olmuşdur. Zaman keçdikcə insan hüquqlarının əsassız məhdudlaşdırılmasının cəmiyyətin maraqlarına zidd olduğu dərk olunmağa başlandı. insan hüquqlarının tanınması isə cəmiyyətin tərəqqisində mühüm nailiyyətə çevrildi.

Hazırda insan hüquqları üzrə normalar beynəlxalq hüquqa daxil edilmiş, onlara hörmət olunması isə beynəlxalq ictimaiyyətin vəzifəsinə çevrilmişdir. Müasir dövrdə insan hüquqları beynəlxalq hüququn əsasını təşkil edir. Onlara əməl etmək öhdəliyi isə dövlətlərin qarşısında duran ən vacib vəzifələrdən biridir. Bu, insan hüquqlarının müdafiəsi sahəsində bağlanmış beynəlxalq müqavilələrdə də öz təsdiqini tapmışdır.

BMT tərəfindən 20 noyabr 1989-cu il tarixində Uşaq Hüquqları haqqında Konvensiya da qəbul edilmişdir. Azərbaycan Respublikasında isə 1998-ci ildə Uşaq Hüquqları haqqında qanun qəbul edilmişdir.

Uşaq Hüquqları Konvensiyası dünyanın hər yerində yaşayan uşaqların hüquqlarını qanuni şəkildə təmin edir. Bu sənəd uşaqların yaşaması və inkişafı üçün zəruri olan minimum standartları müəyyən edir. Konvensiya uşaqların iqtisadi, sosial, mədəni və siyasi hüquqlara malik olmasını

vurğulayır. Uşaq hüquqları haqqında konvensiya 54 maddədən ibarətdir.

**Uşaq hüquqlarının müdafiəsi dünyada və Azərbaycanda**

“Uşaq hüquqlarının müdafiəsi” mövzusu uzun müddətdir ki, bütün dünyanın əsas müzakirə obyektlərindən birinə çevrilmişdir. Hələ XX əsrin əvvəllərindən beynəlxalq ictimaiyyət uşaqlarla bağlı problemləri nəzərə alaraq onların hüquqi və sosial vəziyyətinə diqqəti artırmağa başladı. Belə ki, 20 noyabr 1989-cu il tarixində Uşaq hüquqları Konvensiyası BMT-nin baş məclisinə təqdim edilmiş və qəbul olunmuşdur. Konvensiya 1990-cı ildə 20 dövlət tərəfindən ratifikasiya olunduqdan sonra qüvvəyə minmişdir. Konvensiya ümumilikdə 192 ölkə tərəfindən ratifikasiya edilib. Konvensiya əsasında mühüm nəzarət mexanizmi-Uşaq Hüquqları Komitəsi fəaliyyət göstərir. Komitə konvensiyanın iştirakçı dövlətləri tərəfindən 4 il müddətinə seçilən 10 ekspertdən ibarətdir. Uşaq hüquqları konvensiyası 54 maddədən təşkil olunub. Konvensiyada əks olunmuş bütün hüquqlar dörd geniş kateqoriyaya bölünür:

1. İnkişaf hüquqları – bu hüquqlar uşaqların öz patensialının tam inkişafına olan ehtiyaclarını təmin edir. Bura təhsil almaq, oynamaq, istirahət etmək, mədəni tədbirlərə cəlb edilmə və iştirak etmə, məlumat əldə etmək azad fikir və din hüquqları aiddir.
2. Müdafiə hüquqları – bu hüquqlar uşaqları müxtəlif növ zorakılıq və istismardan qorumalıdır. Həmin hüquqlar məsələn, qaçqın uşaqlara qayğının göstərilməsi, zorakılıq, cəzalandırma, hərbi münaqişələrə cəlb edilmə, uşaq əməyinin istismarı,

narkotik maddələrin istifadəsi kimi məsələləri əhatə edir.

3. İştirak hüquqları – bu hüquqlar uşaqlara yaşadıqları cəmiyyətdə fəal iştirak etməyə imkan verir. Bunlar azad fikir söyləmək, onların həyatlarına təsir göstərən hallarda öz sözlərini demək, birləşmək və assosiasiyalar əmələ gətirməkdir.
4. Yaşamaq hüquqları – Bura uşaqların yaşamaq və bunun üçün lazımi tələbatlarını təmin etmək hüquqları aiddir. Həmçinin adekvat yaşayış standartları, qida və tibbi xidmətə nail olmaq kimi hüquqlar bura aiddir.

BMT – nin Uşaq Hüquqları Konvensiyası Azərbaycan Respublikası tərəfindən 1992-ci ildə imzalanıb və ratifikasiya edilib. Azərbaycanın komitəyə ilk hesabatı 1994-cü ildə təqdim olunmuşdur. Konvensiyada təsbit olunmuş bəzi hüquq və azadlıqlar bunlardır:

Hər bir uşaq yaşamaq üçün ayrılmaz hüquqa malikdir. Buna görə dövlət uşağın sağ qalmasını və inkişafını təmin etməyə borcludur. Uşaqlar öz valideynlərilə yaşamaq, öz baxışlarını azad ifadə etmək hüququna malikdirlər. Özü də həmin uşaqla bağlı hər hansı məsələnin həlli zamanı bu baxışlara diqqət yetirilməlidir.

Dövlət valideynlər tərəfindən müvafiq rəhbərlik şəraitində uşağın fikir, vicdan və din azadlığına hörmət etməyə borcludur.

Uşaqlar assosiasiyalara daxil olmaq və onları yaratmaq hüququna malikdirlər.

Dövlət uşağı valideynlər tərəfindən və ya uşağa qayğı üçün məsuliyyət daşıyan digər şəxs tərəfindən onunla hər

hansı formada pis rəftardan qorumalı  və sui- istifadə hallarının qarşısının alınması, zərərçəkənlərin  müalicə olunması üçün müvafiq sosial proqramlar hazırlanmalıdır. Qaçqın uşaqlar və qaçqın statusu almağa çalışan uşaqlar üçün xüsusi müdafiə təmin edilməlidir.

Azərbaycan Respublikasında da bir çox inkişaf etmiş dövlətlərdə olduğu kimi “Ombudsman” institutu fəaliyyət göstərir. Azərbaycanda 2001-ci il tarixində “Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında“ konstitusiya qanunu qəbul edildi. Eyni zamanda  Ombudsman təsisatının yaradılması və fəaliyyət göstərməsi üçün maddi və hüquqi baza yaradıldı.

2 iyul 2002-ci il tarixində qəbul edilmiş “Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili haqqında” Konstitusiya Qanununun tətbiqilə əlaqədar Azərbaycan Respublikasının bir sıra normativ hüquqi aktlarına Müvəkkilin fəaliyyətinin təmin edilməsi ilə bağlı müvafiq əlavə və dəyişikliklər edilib. Ombudsman Aparatı ölkədə uşaq hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən bir çox proqramlarda təmsil olunur. Aparatın əməkdaşları respublikada dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi və alternativ qayğı “Dövlət Proqramının” həyata keçirilməsi məqsədilə yaradılmış Koordinasiya şurasında Azərbaycanda Yuvenal Ədliyyənin İnkişafı proqramında uşaq hüquqlarının təbliği və müdafiəsinə həsr olunmuş layihələr, həmçinin BMT- nin Baş Assambleyasının uşaqlara dair xüsusi sessiyasının 2002-ci ilin mayında qəbul etdiyi “Uşaqlar üçün yararlı dünya” proqramının üçüncü əsas prinsipi olan “Heç bir uşağı nəzərdən qaçırmayaq” prinsipi üzrə keçirilən layihələrdə iştirak edir. Müvəkkil uşaqların

təhsil hüquqlarının həyata keçirilməsinə xüsusi diqqət yetirir və rayonlara səfər zamanı məktəblərə gedərək uşaqların təhsili, onların problemləri və davamiyyəti ilə maraqlanır. Hal-hazırda bəzi regionlarda qızların təhsildən yayınması və onların erkən vaxtlarda ailə qurması halları böyük narahatlıq doğurur. Müvəkkil bu halların aradan qaldırılması məqsədilə maarifləndirmə işinin aparılması, televiziya kanallarında sosial roliklərin verilməsini və əsasən polis və prokurorluq orqanları tərəfindən bu cür hallarla rastlaşdıqda qanuna müvafiq olaraq az yaşlı qızlarla ailə quran şəxsin cinayət məsuliyyətinə cəlb olunması ilə bağlı müvafiq qurumlara tövsiyyə verib. Bu gün müstəqil Azərbaycan Respublikasında bir çox inkişaf etmiş dövlətlərdə olduğu kimi və müasir dövrümüzdə hüquqi dövlətin mühüm institutlarından sayılan Ombudsman təsisatının fəaliyyət göstərməsi Azərbaycanın hüquqi dövlət və cəmiyyət yolunda olduğunu göstərən ən mühüm amillərdəndir.

Müvəkkil fəaliyyətə başladığı ilk gündən uşaq hüquqlarının müdafiəsinə və təbliğinə, bu sahədə beynəlxalq təcrübənin öyrənilməsinə xüsusi diqqət yetirir.

BMT–nin Uşaq hüquqları Komitəsinin 2006-cı ildə Azərbaycan hökümətinə təqdim etdiyi tövsiyyəni nəzərə alaraq YUNİSEF-in maliyyə dəstəyilə "Uşaq hüquqlarının müdafiəsi: Ombudsman uşaq hüquqları sahəsində işinin gücləndirilməsi" layihəsi texniki resurslarla təmin olunaraq 2006-cı ildə Müvəkkilin yanında Uşaq Hüquqları mərkəzi yaradıldı. Mərkəz tərəfindən uşaq hüquqlarının qorunması; müvəkkilin uşaq hüquqlarına dair qəbul etdiyi şikayətlərin təhlili BMT-nin Uşaq Hüquqları Konvensiyasının milli qanunvericiliyin həyata keçirilməsinin manitorinqi, yaş və

gender amilləri nəzərə alınaraq uşaq hüquqlarının tədrisi üzrə müvafiq modulların və proqramların hazırlanması, uşaq hüquqları ilə bağlı maarifləndirmə işinin gücləndirilməsi, KİV-də uşaq hüquqlarının pozulması hallarını əks etdirən məlumatların manitorinqinin aparılması dövlət müssisələrində (uşaq evləri, internat məktəbləri, polis şöbələrində qanunla münaqişədə olan uşaqların saxlandığı müəssisələrdə) uşaqlara qarşı baş verən zorakılıq hallarının araşdırılması uşaq hüquqlarının müddətinə dair beynəlxalq təcrübənin öyrənilməsi habelə digər vəzifələrin həyata keçirilməsi nəzərdə tutulub.

Azərbaycan Respublikasında "Uşaq hüquqlarının müdafiəsinə dair qanun" 1988-ci il may ayının 19-da qəbul olunmuşdur. Qanuna əsasən hər bir uşağın zəruri maddi-təminat hüququ, vicdan fikir, söz azadlığı, təhsil, tərbiyə almaq, həyat və sağlamlığın mühafizəsi və s. kimi hüquqları vardır. Qanunda göstərildiyi kimi uşaq evlərində internat tipli uşaq müəssisələrində uşaqların təlim-tərbiyəsinə görə həmin müəssisənin rəhbərləri məsuliyyət daşıyırlar. Uşaqların xüsusi tərbiyə müəssisələrinə və ya ixtisaslaşmış tibb müəssisələrinə göndərilməsinə yalnız Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada yol verilir. Göründüyü kimi uşaq hüquqlarının müdafiəsi məsələsi daima dövlətimizin diqqət mərkəzindədir. 2009-cu ilin "Uşaq ili" elan olunması da təsadüfi deyil. Bu sahədə prezidentimiz İlham Əliyev cənabları və H.Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın xidmətləri əvəzsizdir. Yarandığı gündən cəmiyyətin ictimai-siyasi həyatında fəal mövqe tutmaqla uşaq problemlərinin

həlli istiqamətində bir-birindən əhəmiyyətli layihələr həyata keçirən Heydər Əliyev Fondunun təcrübəsi hər bir təşkilat, vətəndaş üçün nümunəvidir. Uşaq evləri və internat məktəblərinin ən müasir səviyyədə təşkili üçün uşaq evləri və internat məktəblərində yenidənqurma və bərpa işlərinə diqqəti artıran Mehriban xanım Əliyeva uşaqların sağlam və problemsiz böyüməsi üçün əlindən gələni əsirgəmir. Uşaq hüquqlarının müdafiəsinə həsr olunmuş konfransda Mehriban Əliyeva müasir dünyanın hərbi münaqişələr və qarşıdurmalar, qlobal iqlim dəyişiklikləri, epidemiya, pandemiya kimi bir çox problemlər sırasında uşaqların taleyi ilə bağlı problemlərin öndə dayanmalı olduğunu xüsusilə vurğulamışdır.

## Uşaqlar: Azərbaycanın bu günü və gələcəyi

Uşaq hüquqlarının müdafiəsi problemi həmişə ictimaiyyəti maraqlandıran bir məsələ olmuşdur. Dünyanın bir sıra ölkələrində bu məsələ ilə ciddi məşğul olunur. Azərbaycanda da uşaq hüquqlarının müdafiəsi ilə bağlı mühüm addımlar atılmış, bir sıra qərar və qanunlar qəbul edilmişdir. İctimaiyyəti bu cəhətdən maarifləndirmək, onları öz hüquqları barədə məlumatlandırmaq kitabxanaların üzərinə düşən mühüm vəzifələrdən biridir. Bu sahədə F. Köçərli adına Respublika Uşaq Kitabxanasının xidmətləri əvəzsizdir. Belə ki, kitabxanamızda keçirilən bir sıra tədbirlər uşaqların, yeniyetmələrin, hətta valideynlərin hüquqi cəhətdən maariflənməsinə kömək edir.

Kitabxanalarda kiçik yaşlı uşaqlar üçün keçirilən tədbirlərdən biri “Ucadan oxu”dur. Bu tədbir hər zaman

oxucularda böyük maraq doğurur. Cəlil Məmmədquluzadənin uşaq hüquqlarından bəhs edən “Qız tərbiyəsi”, “Uşaq teatrı” əsərlərinin ucadan oxunması oxucular üçün maraqlı ola bilər. Bildiyimiz kimi bu əsərlərdə qeyd olunan uşaq hüquqları ilə bağlı problemlər müasir dövrlə də ayaqlaşır.

Uşaqların öz hüquqlarını yaxşı öyrənmələrinə nail olmaq üçün məktəblilər arasında “Mən öz hüquqlarımı yaxşı bilirəm” mövzusunda inşa müsabiqəsinin keçirilməsi yaxşı nəticələr verə bilər. Mövzunu işləyərkən uşaqlar müvafiq ədəbiyyatı oxumalı, internetdən lazımi informasiyanı almış olacaqlar. Bu da istər-istəməz onların öz hüquqları ilə bağlı məlumatlanmasına səbəb olacaq. Nəticələr yoxlanıldıqdan sonra ilk üç yerin sahibi mükafatlandırılarsa bu uşaqların öz hüquqlarını öyrənmək həvəsini daha da artırar. Eyni adda rəsm müsabiqəsinin keçirilməsi də yaxşı nəticələr verər.

Məktəblərdə valideynlərlə görüşün təşkil edilməsi də bu sahədə böyük irəliləyişlərə səbəb olar. Respublika Konstitusiyasının tələblərinə müvafiq olaraq valideynlər uşaqların və onların fiziki əqli inkişafının qayğısına qalmağa və onları vətənin laiqli vətəndaşı kimi böyütməyə borcludurlar. Valideynlər öz hüquq və vəzifələrini uşaqlarına aşılamalı və onları düzgün istiqamətləndirməlidirlər.

Kitabxanada uşaq hüquqlarının qorunması münasibətilə **“Hüquqlarını rəsmlə ifadə et”** başlığı altında rəsm müsabiqəsinin təşkili də məqsədəuyğundur.


Rəsm Müsabiqəsi




HÜQUQLARIM




UŞAQ HÜQUQLARI
UŞAQ HÜQUQLARI

Uşaq hüquqlarının müdafiəsinə dair qəbul olunmuş qərarda göstərildiyi kimi yaşından, cinsindən, sağlamlığından asılı olmayaraq bütün uşaqların hüquqları bərabərdir. Belə ki, normal uşaqlar kimi əlil uşaqların da hüquqları müdafiə olunmalıdır. Belə uşaqları cəmiyyətə hazırlamaq, onların qayğısına qalmaq lazımdır. Azərbaycanda “ Ümman”, “Göy qurşağı”, “Birliyə doğru” adlı bir sıra təşkilatlar fəaliyyət göstərir ki, həmin təşkilatlar məhz xüsusi qayğıya ehtiyacı olan uşaqların hüquqlarının müdafiəsi, onların problemləri ilə məşğul olurlar. Xüsusi qayğıya ehtiyacı olan uşaqları cəmiyyətə hazırlamaq istəyiriksə, ilk əvvəl onların əlil deyil, uşaq olduqlarını düşünməliyik. Bununla əlaqədar olaraq Hans Xristian Andersenin **“Çirkin ördək balası”** əsərini səhnələşdirmək uşaqlarda maraq doğurar:

**Aparıcı:** Yay gəlmişdi. Şəhər kənarının çox gözəl mənzərəsi vardı. Köhnə malikanələrin divarlarından başlamış arxlara qədər ayı pəncəsi bitmişdi. Burada bir ördək qırt düşüb yumurta üstündə oturmuşdu. Nəhayət balalar başlarını qabıqdan çıxartdılar. Qoca ördək soruşdu:

**Qoca ördək:** Hə işlər necədir?

**Ana ördək :** Böyük yumurta hələ çatlamayıb.

**Qoca ördək :** Bu hind toyuğunun yumurtasıdır. Bundan əl çək.

**Ana ördək:** Yaxşısı budur ki, bir az da gözləyim.

**Aparıcı:** Böyük yumurta da axır ki, çatladı. Bala çıxdı. O həm böyük, həm də çirkin idi. Ertəsi gün ördək balaları ilə bağa getdi.

**Başqa ördəklər:** Hələ bir o balaya baxın! Gör nə eybəcərdir.

**Aparıcı:** Təkcə ördəklər yox, onu toyuqlar da dimdikləyir, itələyir, acıqlandırırdılar. Ördəkcik nə edəcəyini bilmirdi.

**Ördəkcik:** Kaş belə çirkin doğulmayaydım. Quşlar mənə gülməyəydilər.
**Bacı-qardaşları:** A kifir kaş ki, səni pişik aparaydı.
**Ana ördək :** Gözlərim səni görməyəydi.
**Aparıcı:** Nəhayət ördəkcik qaçdı. O başqa ördəklərlə rastlaşdı.
**Ördəklər:** Sən nə kifirsən? Bizimlə bir cinsdən olmaq fikrinə düşməyəsən ha!
**Aparıcı :** Ördəkcik bir neçə ay bir qarının evində qaldıqdan sonra oranı da tərk etdi. Qabaqkı kimi ona hamı gülür, çirkinliyinə nifrət edirdi. Havalar soyumuşdu. Bir dəfə ördəkcik bir neçə gözəl quş gördü; hamısı qar kimi ağappaq, uzun oynaq boyunlu. Ördəkcik onları bu günə qədər gördüklərinin hamısından artıq sevmişdi. Özünün də onlar kimi ola biləcəyi fikrinə belə gəlməmişdi. Qış idi. Bir kəndli ördəkciyi donmuş halda tapmış, arvadına aparmışdı. Lakin ördəkcik oradan da qaça bildi. Artıq yay gəlmişdi. Ördəkcik göl kənarında üç qu quşu ilə rastlaşdı. Onlara tərəf üzərək qışqırdı:
**Ördəkcik:** Öldürün məni!
**Aparıcı :** O başını aşağı saldı və birdən suda öz əksini gördü. İndi o ağ qu quşu olmuşdu. Bağa gələn uşaqlar quşlara baxıb deyirdilər:
**Uşaqlar:** Təzə qu quşu hamısından yaxşıdır. O həm gözəl, həm də cavandır.
**Aparıcı:** Qoca qu quşları da onun qarşısında baş əyirdilər. O isə tamam çaşdı və sinəsindən sevinc dolu bir nida qopdu:
**Ördəkcik:** Mən çirkin ördəkcik olanda bu cür xoşbəxtliyi heç ağlıma da gətirə bilməzdim.

Bildiyimiz kimi nə qədər müasir cəmiyyətdə yaşasaq da qız uşaqlarına qarşı münasibət eyni deyildir. Gələcəkdə bu kimi problemləri aradan qaldırmaq üçün şagirdlər arasında belə bir oyun keçirmək olar:

Uşaqlar qızlar və oğlanlar olmaqla iki qrupa ayrılır. Əvvəlcə oğlanlar qızlara müəyyən əmrlər verirlər (tullanmaq, qəsdən yerə salınmış əşyanı bir neçə dəfə yerdən götürmək, qaçmaq və s.) Bu cür rəftar qızların xoşuna gəlməsə də onlar bunu etməlidirlər. Daha sonra qruplar yer dəyişdirirlər. Bu dəfə qızlar əmrlər verir və oğlanlar onları yerinə yetirməli olurlar. Oyundan sonra hər bir uşağın fikirləri tək-tək soruşulur. Aydındır ki, heç bir uşağın onunla bu cür rəftar edilməsindən xoşu gəlməyəcək. Odur ki, sonda kitabxanaçılar uşaqlara müraciət edərək bildirir:

"Uşaqlar bu oyunu keçirməkdə bizim məqsədimiz sizə insanlar arasında cinsə və yaşa görə fərq qoymamağı öyrətmək idi. Hazırda bəzi bölgələrdə qız uşaqlarının hüquqları pozularaq, erkən yaşda ailə qurmağa məcbur edilir. Onların çoxu orta məktəbi ancaq 4-5-ci sinifə kimi oxuyur. Hər il yüzlərlə qız uşağı ana bətnində ikən məhv edilir. Unutmayaq ki, hər birimiz cinsimizdən, yaşımızdan asılı olmayaraq insanıq. Hər birimizin hüquq bərabərliyi qanunla müəyyən olmuşdur. Heç birimizin digərinin həyatına müdaxilə etməyə, ona alçaldıcı münasibət göstərməyə haqqımız yoxdur.

Məktəblilərlə "Siz öz hüquqlarınızı bilirsinizmi? " adlı disputun keçirilməsi yaxşı nəticələrə gətirib çıxarar. Belə ki, uşaqlarla bu haqda söhbətin aparılması onların öz hüquqları haqqında olan məlumatını artırar. Tədbirə hər hansı bir uşaq hüquqları təşkilatının nümayəndəsini dəvət edərək uşaqları

maraqlandıran sualların cavablandırılmasına şərait yaratmaq da məqsədə uyğundur. Uşaqlarla onların hüquqlarından danışarkən slaydlardan istifadə olunması, onların öz hüquqlarını daha yaxşı başa düşmələrinə yardımçı olar. Bu məqsədlə müvafiq slaydları sizə təqdim edirik (Əlavə-1).

Ancaq uşaqlar bəzən öz fikirlərini səsləndirməkdən çəkinirlər. Bu problemi aradan qaldırmaq üçün uşaq hüquqları ilə bağlı saytlar da fəaliyyət göstərir. Bu saytlara misal olaraq *www.ombudsman.gov.az*, *www.humanrights-az.org*, *www.crlc.az,* *www.ngoalliance.net*, *www unicef.org/azerbaijan,*
*www. osce.org* və s. kimi saytları göstərmək olar.

Bildiyimiz kimi bir çox uşaq bəzi hallarda müdafiə oluna bilmədiyi üçün onların hüquqları pozulur. Bu məqsədlə kitabxanaçıların uşaqlara müəyyən məsləhətlər verməsi, onları bu cəhətdən maarifləndirmələri gələcəkdə müsbət nəticələr verə bilər. Kitabxanaçıların aşağıdakı məsələlərlə bağlı məsləhət verməsi məqsədə müvafiqdir. Uşaqları daha yaxşı başa salmaq üçün mövzu ilə əlaqədar olan slaydları təqdim edirik (Əlavə-2).

## Uşaq evdə tək olduğu zaman nə etməlidir?

Əgər evdə təksinizsə, qapını yad adamlar üçün açmayın. Qapının arxasındakı adam sizə təcili teleqram və ya məktub gəldiyini söyləsə, ondan məktubu və ya teleqramı oxumasını xahiş edin. Ancaq qapını açmayın.

Sizdən evdə tək olub-olmadığınızı soruşsalar, atanızın da evdə olduğunu, ancaq yatdığını söyləyin. Xahiş edin ki, həmin adam sonra gəlsin.

Çətinə düşəndə polisə (102-yə) və ya qaynar xəttə (916-ya) zəng edin. Telefonunuz mobil telefondursa nömrələrin qarşısında 012 nömrəsini yığın.

Telefonunuz işləmirsə və ya telefonla bağlı hər hansı bir problem yaranıbsa, onda eyvana çıxıb qonşuları köməyə çağırın.

Poçta, mağazaya, zibil atmağa getsəniz, əvvəlcə qapının gözlüyündən baxın. Yad adam görmədiyiniz təqdirdə çölə çıxın. Qısa müddətə belə olsa evdən çıxası olsanız, qapını açarla bağlamağı unutmayın.

Əgər lift gözləyirsinizsə, arxası divara tərəf durun. Yad adam sizin ağzınızı bağlayıb zorla liftə salsa, əlinizdəki çanta və ya zibil qabı ilə onu vurun. Daha sonra liftin "dayan" düyməsini sıxıb liftdən qaçın. Evə gələn kimi baş verənləri valideynlərinizə deməyi unutmayın.

**Uşaq küçədə necə davranmalıdır?**

Valideynlərinizin evdə olmadığı vaxt harasa getməli olsanız, hara getdiyinizi, nə vaxt gələcəyinizi bir vərəqə qeyd edib evdə qoymağı unutmayın.

Əgər gecikməli olsanız, evə zəng edib valideynlərinizi xəbərdar etməyi və ya onlardan sizi qarşılamalarını xahiş etməyi unutmayın.

Əgər küçədə şübhəli bir şəxs və ya bir qrup şəxs görsəniz, ondan uzaq durmağa çalışın. Yad adam sizdən müəyyən ünvanı soruşsa, həmin ünvanı ona şifahi başa salın. Soruşulan yer yolunuzun üstündə belə olsa, bunu hiss etdirməyin.

Yad bir şəxs sizə çoxdan arzusunda olduğunuz nəyi isə təklif etsə və ya nəyəsə baxmaq üçün onunla getməyinizi təklif etsə, ona etiraz edin. Onu sizin valideynlərinizin göndərdiyini belə söyləsə ona inanmayın.

Yad adamların maşınına minməməyə çalışın. Valideynlərinizin icazəsi olmadan kiminsə maşınına minsəniz və pis halla qarşılaşsanız, sükanı çəkməklə və ya əyləci dartmaqla başqa sürücülərin diqqətini çəkə bilərsiniz.

Dərsdən evə gedərkən adamların az olduğu və ya heç kəsin olmadığı yerlərlə getməyin.

Uşaqların bəzi pis vərdişlərə (popiros çəkmək, spirtli içkilərdən istifadə) yiyələnməsi onların gələcək həyatını tamamilə məhv edə bilər. Bu məqsədlə kitabxanaçılar popiros, alkoqolun mənfi cəhətlərindən uşaqları məlumatlandırsalar bu uşaqların belə vərdişlərdən uzaq olmalarına kömək edər.

Uşaq hüquqlarının tapdanmasını özündə əks etdirən M.Ə.Sabirin "Oxutmuram əl çəkin", C.Məmmədquluzadənin

"İki alma", R.Rzanın "Çörək satan qızlar" kimi əsərlərinin oxuculara tövsiyə olunması məqsədə uyğun ola bilər. Belə ki, bu əsərlərin hər birində uşaqların acınacaqlı vəziyyəti, bir parça çörək uğrunda qatlaşdıqları iztirab, təhsil ala bilməmələri hazırki dövr üçün də müəyyən qədər xarakterikdir.

Bu mövzu xarici ədəbiyyat nümayəndələrinin də hər zaman diqqət mərkəzində olmuşdur. Belə ki, Alfred dö Breanın " Bir balaca parijlinin həyatı", Çarlz Dikkensin "Oliver Tvist", Çems Qrinvudun "Balaca səfil", Viktor Hüqonun "Səfillər" əsərində uşaq hüquqları ilə bağlı mövcud problemlər işıqlandırılır. Bu ədəbiyyat nümunələrinin icmalının keçirilməsi oxucularda bu əsərlərə qarşı maraq yaradar.
https://drive.google.com/file/d/1mW26YAanI4fLv8OCsLN3u2iyiIi1bxg4/view

**Uşaq hüquqları dünya xalqlarının nağılllarında**
Rusiya-Azərbaycan layihəsi. — Editions Pediatr,
П68 Moskva şəh, 2017. — 236 səhifə.
ISBN 978-5-9500710-8-9
Rusiya pediatrlarının təşəbbüsü və EPA/UNEPSA Avropa Pediatriya Assosiasiyasının iştirakı ilə "ПедиатрЪ" nəşriyyatı tərəfindən BMT-nin Uşaq hüquqları Konvensiyasına dair müxtəllif dillərdə illüstrasiyalı ikidilli tərtibli kitablar dərc edilir. Bu layihə çərçivəsində ilk kitab rus və fransız dillərində nəşr olunmuşdur.
Layihənin məqsədi —ümumbəşər dəyərləri, xüsusilə uşaq hüquqlarına dair bilgiləri təbliğ etməkdir. Layihə

uşaqlar üçün daha asan və əlverişli nağıl şəklində reallaşdırılıbdır.
Uşaq hüquqlarına dair BMT Konvensiyası kitabda orijinal şəkildə izah edilmişdir. BMT Konvensiyasının mətni dəyişiklik edilmədən kitabda verilibdir. Kitabın 1-ci Hissəsi hər bir maddəni (1–41-ci maddələr) illüstrasiya edən xüsusi olaraq seçilmiş və adaptasiya edilmiş şəkilli nağıllardan ibarətdir. II Hissə (42–54 maddələr) illüstrasiya olmadan verilmişdir, belə ki, Konvensiya maddələrinin cəmiyyət tərəfi ndən işlədilmə qaydaları orada şərh olunubdur.
2014-cü ildə Rusiya pediatrlar assosiasiyasının təşəbüsü ilə və Avropa pediatrlar assosiasiyası tərəfindən reallaşdırılan rus-fransız layihəsi çərçivəsində "Права детей в сказках народов мира" adlı kitab dərc
olunmuşdur. Müxtəlif ölkələrdə fəaliyyət göstərən Pediatrlar Cəmiyyətlərini bu layihəyə cəlb edilməsi, Bu kitabın öz ana dillərində dərc olunması məqsədilə milli pediatrlar cəmiyyətlərinin həmin layihəyə cəlb edilməsi təşəbbüsü Assosiasiyanın İcra komitəsinin iclasında dəstəklənmişdir və 25 mart 2014 il tarixili iclasın protokolu ilə təsdiq edilmişdir. Bununla bağlı, Azərbaycanda 2016-2017-cı illərdə Azərbaycan Pediatrlar Assosiasiyasının üzvləri, Ə.Əliyev
adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun pediatriya kafedrasının və K.Fərəcova adına
Elmi-Tədqiqat Pediatriya İnstitutun əməkdaşları tərəfi ndən "Права детей в сказках народов мира" adlı kitaba
azərbaycan nağılları əlavə edilərək. Həmçinin kitaba üç Azərbaycan nağılı əlavə edilmişdir. Biz əminik ki,
təhsil — tərbiyyə məzmunlu bu unikal kitab böyüklərin müxtəlif ölkələrdə yaşayan uşaqların hüquqlarına

diqqət yetirməyə, onları qorumağa və xoşbəxt gələcəyini təmin etməyə köməklik edəcəkdir.

Ceyms Qrinvudun müəllifi olduğu “Balaca səfil” povesti “İngilis ədəbiyyatı antologiyası” adlı iki cildli kitabın birinci cildində yer alır. Kitab Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunub və ölkə kitabxanalarına hədiyyə edilib. 2007-ci ildə “Şərq-Qərb” nəşriyyatında dərc olunmuş bu kitabda Daniel Defo, Robert Berns, Çarlz Dikkens, Corc Qordon Bayron kimi müəlliflərin əsərləri ilə yanaşı, Ceyms Qrinvudun “Balaca səfil” əsəri də öz əksini tapmışdır.

Əsərdə 6 yaşlı uşağın çəkdiyi iztirablardan, üzləşdiyi çətinliklərdən söhbət açılır. Əsərin qəhrəmanı olan balaca Cimmi ögey anasından qorxduğu üçün evdən qaçır və onun əzab dolu illəri bundan sonra başlayır. Müəllif onu küçədə yaşadığı şəraiti belə təsvir edir:

“Yaşadığımız yer soyuq və rütubətli idi. Ətraf elə qaranlıq idi ki, iki addımdan heç nəyi seçmək olmurdu. Heyvan mağarasına oxşayan bu yerdə adamı qorxu bürüyürdü. ”

İsitmə xəstəliyindən canını qurtaran Cimmi yaşamaq üçün oğurluq etməyə belə məcbur olur. Əsərdəki hadisələr cərəyan etdikcə Cimminin tək deyil, onun kimi onlarla yurdsuz uşağın olduğunun şahidi oluruq.

Uşaqların çətin həyat şəraitindən bəhs edən əsərlərdən biri də Çarlz Dikkensin “Oliver Tvist” romanıdır. Dünya ədəbiyyatı seriyasından olan bu kitab 2005-ci ildə “Çaşıoğlu” nəşriyyatı tərəfindən nəşr olunmuşdur. Yazıçı kiçik yaşlı

uşaqların çəkdiyi müsibətləri olduqca inandırıcı lövhələrlə əks etdirmişdir. Romanda Çarlz Dikkens oxucuların diqqətini ideal ictimai mühitə, xoşbəxt və ədalətli şəraitə cəlb etməyə çalışır. Əsərdə balaca Oliverin ailəsinə qovuşana qədər çəkdiyi çətinliklər öz əksini tapır ki, bununla da yazıçı uşaq xoşbəxtliyinin ancaq ailə çərçivəsində mümkünlüyünü göstərməyə çalışır.

Mövzu ilə əlaqədar əsərlərdən biri də Viktor Hüqonun "Səfillər" romanıdır. Kitab Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunmuş və ölkə kitabxanalarına hədiyyə edilmişdir. Kitabın nəşri 2005-ci ildə "Öndər nəşriyyat"ı tərəfindən həyata keçirilmişdir.

Əsərdə müəllif bir çox məsələyə toxunsa da, uşaq hüquqlarının pozulması, uşaqların çətin həyat şəraiti ön planda duran problemlərdən biri kimi əks olunmuşdur. Romanda Kozetta, Qavroş, Marius kimi uşaq surətləri yer alır. Bu uşaqların hər birinin həyatı olduqca keşməkeşlidir. Belə ki, Kozetta ilə Marius sonda xoşbəxtliyə çatdıqları halda Qavroş barrikadada öldürülür.

Hazırda onlarla Qavroş kimi uşaq terrorun, müharibənin, silahlı qarşıdurmaların qurbanı olur. Bu məsələlə qarşıda duran və həll edilməsi vacib olan problemlərdən biridir. Odur ki, hər biri ayrı-ayrılıqda uşaq hüquqları, onların pozulması ilə əlaqədar olan bu əsərlərin icmalının məktəblərdə keçirilməsi tövsiyyə olunur.

Ədəbi bədii gecələr uşaq kitabxanalarında həvəslə və maraqla keçirilən tədbirlərdən biridir. Mövzu ilə əlaqədar "Xoşbəxt

olsun uşaqlar" adlı ədəbi bədii gecənin ssenarisini təqdim edirik.
(Səhnənin tərtibatında dövlət bayrağımız və gerbimiz ön plandadır.) Ədəbi bədii gecə Yalçın Rzazadənin ifasında "Xoşbəxt olsun uşaqlar" mahnısı ilə açılır.

(Aparıcılar səhnəyə daxil olurlar.)

I aparıcı: Salam, əziz uşaqlar! Bu tədbiri keçirməkdə əsas məqsədimiz sizi hüquqlarınız barədə məlumatlandırmaqdır. Yaddan çıxarmamalısınız ki, hər biriniz gələcəyin qurucularından birisiniz. Sizin vətənə və elə bağlılığınızdan asılı olaraq həyat mövqeyiniz müəyyənləşəcəkdir. Respublikamızın ərazi bütövlüyü hər birinizin ayrı-ayrılıqda mübarizliyinə və mətinliyinə bağlıdır.
II aparıcı: Ölkəmizin ləyaqətli vətəndaşı olmaq üçün hər bir şagird səylə oxumalı və nümunəvi olmalıdır. Çünki hər uşağın gələcəyi məktəbdə aldığı bilik və bacarığından asılıdır. Konstitusiyamızın da 42-ci maddəsində göstərildiyi kimi hər bir vətəndaşın təhsil almaq hüququ vardır. Dövlətimiz hər bir uşağın pulsuz icbari ümumi təhsil almaq hüququnu təmin edir. Siz tədricən yaşa dolduqca vətəndaş kimi formalaşmağınız sürətlənir, hüquqlarınız genişləndikcə vəzifələriniz və məsuliyyətiniz artır.

(Oxuculardan biri M.Ə.Sabirin "Məktəb şagirdlərinə töhfə" şeirini söyləyir:)

Oxucu:

Ey uşaqlar, uşaqlıq əyyami, -
Gələn əyyamın ondadır kami.

Kim ki, qeyrətə, zəhmətə alışar,
Kəsbi-irfanə ruzi şəb çalışar,

Zəhməti mayeyi-səadət olar,
Yaşadıqca həmişə rahət olar.

Kim ki, tənbəlliyə məhəbbət edər,
Daim əyləncələrlə ülfət edər.

Keçirir vəqtini cəhalət ilə,
Bütün ömrü keçər səfalət ilə.

İştə, övlad, siz bu halı görün,
Bu iki vazeh ehtimalı görün;

Vəqtdən daim istifadə edin,
Elm təhsilini idarə edin;

Çalışın, biniyaz olun, çalışın!
Elm ilə sərfəraz olun, çalışın!

Gələcək günlərin səadətini –
Qazanın fəzlü fəxrü izzətini.

Sizdədir millətin ümid gözü,
Hal ilə söyləyir sizə bu sözü.

Dinləyin yanğılı sədalərini!..
Eşidin atəşin nəvalərini!..

Oxuyun, millətin nicatı olun!
Ta ədəb baisi-həyatı olun!

I aparıcı:16 yaşından etibarən siz hər biriniz ölkənin vətəndaşı kimi vəsiqə alır, normal əmək münasibətlərinə qoşulursunuz. Bütün bu qeyd edilənlər sizi gələcəkdə cəmiyyətin və dövlətin siyasi həyatında iştirak etmək üçün hazırlayır.

(Oxucu R. Rzanın “Qaranquş və Sərçə” şeirini deyir.)

Oxucu: Qaranquş qondu eyvanın
Düyün-düyün pərdəsinə
- Cik-cik!
Bahar gəlib, biz də gəlmişik
Baxdı bir yuva gördü.
Cik-cik!
Kim var orda, çıxsın!
Biz gəlmişik.
Sərçə yuvadan çıxartdı başını:
Kimdir qonaq?
Buyursun qapıda dayanmasın.
Qaqaranquş hövsələsiz qışqırdı:
- Ey, qulaq asın!
Biz qonaq deyilik.
Kimdir orda yubanmasın!
Cik-cik!

Biz bu yuvanı bəyənmişik
Sərçə əvvəl qulağına inanmadı
Bəlkə pis eşitdim,
Dedi: Bəlkə mətləbi qanmadım.
Yenə səs gəldi:
- Cik- cik!
-Sən çıx get. Biz gəlmişik.
Onda sərçə atılıb qabağa
Başladı quş dilində danışmağa
Xəbərin varmı?
Həmişə bahar olmur.
Gündüz göylər buludsuz
Gecələr süd aydınlıq olmur həmişə.
Mən də baharı sevirəm ancaq
Bahar dalınca qaçmamışam.
Burda qalmışam yayı da, payızı da
Mən dözmüşəm bu yerin
İstisinə soyuğuna
Dözmüşəm dən yoxuna, su yoxuna.
İndi hara, kimin qapısına gedim?
Susdu sərçə fikirli-fikirli
Bilmirəm, qaranquş utandımı, susdumu.
Yoxsa çəkilib bir tərəfə
Sərçənin dən ardınca yuvadan getməsini pusdumu.
Ancaq sərçənin sözləri xoşuma gəldi mənim
Insan dili bilsəydi
Bir nəğmə də öyrədərdim ona:
"Könlümün sevgili məhbubi mənim,
Vətənimdir, vətənimdir, vətənim..."

**I aparıcı:**3-4 yaşından 18 yaşına kimi olan uşaqlar xırda alverlə, maşın yumaqla, dilənçilik, şüşə qabların yığılması kimi işlərlə məşğul olurlar. Belə uşaqlar tez-tez döyülməyə, işgəncələrə məruz qalırlar. İstismara məruz qalan və məktəbdən aralı düşmüş həmin uşaqların təhsil səviyyəsi də yox dərəcəsindədir. Küçədə yaşayan və işləyən uşaqların əksəriyyəti spirtli içkilərə, narkotiklərdən istifadəyə meyillidir. Belə uşaqların gələcəkdə cəmiyyətin yararlı üzvünə çevrilməsi də sual altındadır. Uşaq əməyinin belə istismarına görə qanunvericilikdə bir sıra cəzalar nəzərdə tutlmuşdur.

**II aparıcı:** Odur ki, əziz, uşaqlar, siz son dərəcə düşüncəli davranmalı tanımadığınız insanlarla münasibətdə ehtiyatlı olmalısınız. Hər hansı bir insanla yoldaşlıq etməzdən əvvəl onu sınamalı, davranışlarına, dilə gətirdiyi düşüncələrinə diqqət yetirməlisiniz. Valideynlərinizin icazəsi olmadan müəyyən yerlərə getməməli, pis vərdişlərdən uzaq olmalısız. Belə ki, Konstitusiyamızın da 70-ci maddəsində göstərildiyi kimi narkotik maddələr və başqa bihuşedici vasitələr insanlar, xüsusən də uşaqların sağlamlığı üçün təhlükəlidir. Təbabət elmi də sübut edir ki, bu vasitələrdən istifadə edənlər az müddətə sağlamlığını və nəhayət həyatını itirir. Narkotik və başqa bihuşedici vasitələrdən istifadə edənlər ailə qurmaq iqtidarını da itirir.

(Oxucu M.Ə.Sabirin “Rəhgüzari-məxluqatda bir möhtaci məsarif” şeirini söyləyir.)

Oxucu: Ey dərbədər gəzib ürəyi qan olan çocuq!
Bir löqmə nan üçün gözü giryan olan çocuq!
Əşkilə abrusu da ziyan olan çocuq!
Məklubi nan qazandığı hirman olan çocuq!

Ey gövhəri-fitadə-bəgil, qal nihan hənuz,
Sərrafi-qədrdən deyil islamya hənuz,
Məşğul xurdü-xabdır ərbabi-şan hənuz,
Var ortalıqda söhbəti-dəvayi-nan hənuz,
Yox gövhəri-səadətə xahan olan çocuq!
Ey dərbədər gəzib ürəyi qan olan çocuq!
Həqli deyil o kim sənə der: var qəbahətin;
Məncə qəbahət isə olur hali millətin...
Etsəydi tərbiyat səni əhli-vilayətin,
Sailliyə qalırmıdı hərgiz də rəğbətin ?!
Başsız qalıb ayaqlara üftan olan çocuq!
Ey dərbədər gəzib ürəyi qan olan çocuq!

Ey nəxleyi-vətən, əşrəf olsun bu halına
Kim, bəxşi tərbiyət edənin yox nihalına
Bilməm nələr gəlir şu qaranlıq xəyalına...
Baxdıqca yalü balına yardım məlalına!
Ey vadiyi-səfaləti puyan olan çocuq!
Ey dərbədər gəzib ürəyi qan olan çocuq!

**I aparıcı:** Əziz uşaqlar, siz öz hüquqlarınızı nə qədər yaxşı bilsəniz qarşınıza çıxan çətinlikləri bir o qədər rahatlıqla aradan qaldıra bilərsiniz. Buna görə də öz hüquqlarınızı öyrənməyə (təhsil, azad söz, azad fikir, yaşamaq və inkişaf etmək, informasiya almaq, assosiasiyalar yaratmaq və s.)

tənbəllik etməyin. Sizi maraqlandıran hər hansı bir məsələ olduqda valideynlərinizə, müəllimlərinizə, kitabxanaçılara müraciət edə bilərsiniz. Unutmayın ki, bizim gələcəyimiz siz uşaqların əlindədir.

**II aparıcı:** Uşaq hüquqlarının müdafiəsilə bağlı məsələlər hər zaman hörmətli prezidentimiz İlham Əliyev cənabları və onun xanımı Mehriban Əliyevanın diqqət mərkəzində olmuşdur. 2009-cu ilin "Uşaq ili" elan olunması da təsadüfi deyil. Bu yaxınlarda ölkənin birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə keçirilmiş uşaq hüquqlarının müdafiəsinə həsr olunmuş konfransda bir sıra problemlərə toxunulmuşdur. Ölkəmizdə uşaq hüquqlarının müdafiəsinə həsr olunmuş qərar qəbul olunmuş, Konstitusiyamızın müvafiq maddələrində (42; 52; 67; 68; 70 və s.) uşaq hüququna dair məsələlər öz əksini tapmışdır. Biz inanırıq ki, dövlətimizin bu qayğıları gələcəkdə uşaqlarla bağlı olan problemlərin azalmasına səbəb olacaq.

(Oxucu Rəsul Rzanın "Gələcəyə səyahət" şeirini söyləyir).

Oxucu: Pəncərəmi açdım sabaha:
Gördüm insanlar keçib gedir;
İllər üstündən aylar üstündən
Sərhəd dirəklərindən körpülər salınıb;
Dənizlər üstündən, çaylar üstündən
Zindan daşlarından yollar çəkilib;
Kəndlər arasında, şəhərlər arasında.
Bu yoldan keçib gedən insanlar;
Ağı da, Sarısı da, Qarası da.
Mən də onların içindəydim,

Siz də bu gün inamlı,
Sabah ümidli qəlbinizdə,
Çağırdım: -Ey qardaşlar!
Danışdıq, danışdıq, danışdıq
Tərcümansız, dilmancsız.
İnan bu sabaha,
Oğlum, qızım,
Bacım, qardaşım – İnsan!
Atam, anam – İnsan!
Yaşamaq olarmı inanmasan!..

(Tədbir dövlət himnimizin səsləndirilməsi ilə sona çatır.)

Uşaqların öz hüquqlarını nə dərəcədə bildiklərini müəyyən etmək üçün onlar arasında kiçik bir anket sorğusu və ya test keçirmək məqsədə müvafiq olar. Test suallarını açıq və qapalı veririk ki, uşaqlar öz fikirlərini çəkinmədən yaza bilsinlər. Test anonim keçirilərsə uşaqlar öz fikirlərini daha sərbəst ifadə edə bilərlər. Çünki test anonim keçirildiyi zaman cavablar daha obyektiv olur. Bu tədbiri keçirməkdə məqsədimiz uşaqların öz hüquqlarını nə dərəcədə bildiklərini müəyyən etməkdir. Testi aşağıda təqdim edirik:

**1**. Uşaq Hüquqları Konvensiyası neçənci ildə qəbul olunub?

A . 1993
B. 1989
C. 1997
D.1988

**2**. Uşaq Hüquqları Konvensiyasının neçə maddəsi var?

A. 10
B. 99
C. 54
D. 34

**3**. Uşaq Hüquqları Konvensiyasına neçə dövlət daxildir?

A. 190
B. 140
C. 192
D. 189

**4**. Hansı dövlətlər Uşaq Hüquqları Konvensiyasına daxil deyil?

A. ABŞ, Somali.
B. Azərbaycan.
C. Rusiya, Gürcüstan.
D.Türkiyə.

**5.** Uşaq Hüquqları Komitəsi harada yerləşir?

A. Parisdə.
B. İstabulda
C. Moskvada.
D. Cenevrədə

**6.** Yuvenal ədliyyə nədir?

A. Yetkinlik yaşına çatmayanların ədalət mühakiməsi.
B. Yetkinlik yaşına çatanların ədalət mühakiməsi.
C. Gənclərin ədalət mühakiməsi.
D. Bilmirəm.

**7.** Aşağıdakı fikirlərdən hansı səhvdir?

A. Azərbaycan Respublikasının Konstitusiyasının 42-ci maddəsinə əsasən hər bir vətəndaşın təhsil almaq hüququ vardır.
B. Uşaqların ictimai birliklər və ictimai özfəaliyyət orqanları yaratmaq və onlarda birləşmək hüququ vardır.
C. Hər bir uşağın şərəf və ləyaqətini müdafiə etmək hüququ vardır.
D. Uşaqların və uşaq ictimai özfəliyyət orqanlarının siyasi fəaliyyətə cəlb edilməsinə icazə verilir.
E. Hamısı.

**8.** İnzibati xəta törətmiş uşaqlar üçün tənbih tədbirləri seçilərkən aşağıdakılardan hansılar nəzərə alınmalıdır?

A. Uşağın yaşı.
B. Həyat şəraiti.
C. Səhhəti.
D. Psixi inkişafı və təhsili.
E. Hamısı.

**9.** Valideynlər nə vaxt valideynlik hüququndan məhrum edilə bilər?

A. Valideynlik hüququnun ləğv edilməsi mümkün deyil.
B. Valideyn öz hüquqlarından sui-istifadə etdikdə.
C. Valideyn spirtli içkilər içdikdə.
D. Valideyn narkotikdən istifadə etdikdə.

**10.** Düzgün variantı seçin.

A.Uşaqların təhsil və yaşayış yerlərində Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada ictimai birliklər və ictimai özfəaliyyət orqanları yaratmaq və onlarda birləşmək hüquq vardır.
B. Dövlət orqanları və bütün fiziki hüquqi şəxslər öz fəaliyyətlərində uşaqların mənafelərini üstün tutmaları tələb olunmur.
C. Uşaqlar öz valideynlərinin maraqlarına uyğun olaraq öz istirahət növlərini müəyyənləşdirirlər.
D. Uşaqlar 15 yaşından cinayət işlərinə görə məsuliyyətə cəlb olunur.

**11.** Yetkinlik yaşına çatmayan şəxsin başqasının əmlakına vurduğu ziyana görə kim məsuliyyət daşıyır?

A. Uşağın özü
B. Valideynləri və ya qəyyumu
C. Heç kim
D. Təhsil aldığı müəssisənin rəhbərliyi.

**12**. Cinayət işləməyə görə insanlar neçə yaşından məsuliyyət daşıyır?

A. 16 yaş, bəzi cinayətlər üzrə 14 yaş.
B. 15 yaşından etibarən
C. 18 yaşından etibarən
D. 20 yaşından etibarən

**13.** Hansı fikir yalnışdır?

A. Hər bir uşağın mənzil hüququ vardır.
B. Hər bir 17 yaşına çatmış qızın ailə qurmaq hüququ var.
C. Uşaqların yaşına, səhhətinə, ümumtəhsil və peşə hazırlığı səviyyəsinə uyğun olaraq əmək hüququ vardır.
D. Bütün uşaqlar eyni hüquqa malikdir.

**14**.Uşaq Hüquqları Konvensiyası nədir?

A. ABŞ-da yaşayan uşaqların konvensiya ilə müəyyən olunmuş hüquqlarını təmin edir.
B. BMT tərəfindən qəbul edilmiş bir saziş olaraq dünyanın hər yerində yaşayan uşaqlara konvensiya ilə müəyyən edilmiş normalar üzrə hüquqları təmin edir.

C. Ancaq inkişaf etmiş ölkələrdə yaşayan konvensiya müəyyən olunmuş hüquqları təmin edir.

D . ______________________________________

**15.** Aşağıdakı fikirlərdən hansı Uşaq Hüquqları Konvensiyasında öz əksini tapmamışdır?

A. Uşaqlar yaşamaq üçün fərqli hüquqlara malikdir.
B. Uşaqlar öz valideynləri ilə yaşamaq hüququna malikdir.
C. Hər bir uşaq yaşamaq üçün ayrılmaz hüquqa malikdir.
D.Uşaqlar ən yüksək standartlara müvafiq olan tibbi yardım hüququna malikdir.

**16**. Uşaqların lazımi həyat səviyyəsinin yüksəldilməsi üçün kimlər məsuliyyət daşıyır?

A. Dövlət
B. Təhsil müəssisəsi
C. Valideyn
D. Uşaq özü

**Cavablar :**

| | | | |
|---|---|---|---|
| 1. B | 6.A | 11. B | 16. C |
| 2. C | 7. D | 12. A | |
| 3. C | 8. E | 13. B | |
| 4. A | 9. B | 14. B | |
| 5. D | 10. A | 15. A | |


UŞAQ
HÜQUQLARI
UŞAĞIN
TƏHSİL
ALMAQ
HÜQUQU
UŞAĞIN YAŞAMAQ VƏ
İNKİŞAF ETMƏK
HÜQUQU
UŞAĞIN HƏYATI VƏ
SAĞLAMLIĞININ MÜHAFİZƏSİ
HÜQUQU
UŞAĞIN
AD VƏ VƏTƏNDAŞLIQ ALMAQ
HÜQUQU
UŞAĞIN
TƏRBİYƏ
ALMAQ HÜQUQU
UŞAĞIN AZADLIQ
VƏ ŞƏXSİ TOXUNULMAZ-
LIQ HÜQUQU


MÜDAFİƏ
HÜQUQLA-
RI
İNKİŞAF
HÜQUQLA-
RI
UŞAQ
HÜQUQLA-
RI
KONVENSİ-
YASI
İŞTİRAK
HÜQUQLA-
RI
YAŞAMAQ
HÜQUQLA-
RI


Sağlamlıq
Yaşamaq
İstirahət etmək
Fikrini bildirmək
Təhsil almaq


Hər bir uşağın istirahət etmək və asudə vaxt keçirmək hüququ var.




# TƏHSİL HÜQUQU.





SAĞLAMLIĞIN MÜHAFİZƏSİ HÜQUQU.



İCTİMAİ TƏŞKİLATLARDA BİRLƏŞMƏK HÜQUQU.





İSTİRAHƏT HÜQUQU.

MƏNZİL HÜQUQU.



## *ƏGƏR EVDƏ TƏKSƏNSƏ...*

**Çətinə düşəndə valideynlərinlə əlaqə saxlamaq üçün nəzərdə tutulmuş telefon nömrəsinə zəng et.**

**Yad adam qapını qırmağa çalışırsa, onda polisə (102-yə) və ya qaynar xəttə (916-ya)**



**Əgər tanımadığınız şəxs sizə məktub və ya teleqram gəldiyini söyləyirsə, onu oxumasını rica edin.**

**Əgər harasa getməli olsanız, qapını bağlayıb açarı özünüzlə götürün.**

***SƏN KÜÇƏDƏ OLARKƏN...***



**Səndə şübhə yaradan insanlardan uzaq olmağa çalış.**

**Çalış ki, yolunu meşədən və ya ağaclıq olan yerlərdən salmayasan.**



**Axşam evə qayıtmalı olsan insanların olmadığı və qaranlıq yolla getməməyə çalış.**

**Evdə tək olduğunu telefonda hiss etdirməmək üçün...**



Qaynar xətt: (012) 916

Abonent telefon nömrəsini səhv yığıbsa, zəng etmək istədiyi nömrəni soruşun, öz nömrənizi isə deməyin.

Zəng edən şəxsi tanımasanız o öz adını deməmiş siz ona  müəyyən adla müraciət etməyin.

Əgər valideynlərin izin tanışları zəng edib sizə gələcəklərini söyləsələr onlardan valideynlərin izin evdə olduğu vaxt gəlmələrini xahis edin.

Hər bir xalqın, dövlətin ən böyük və qiymətli sərvəti uşaqlardır. Uşağı sağlam, cəmiyyətə faydalı vətəndaş kimi böyütmək çətin və məsuliyyətli, mənəvi qüvvə tələb edən bir işdir. Hər bir ölkənin gələcəyi uşaqlarımızın necə tərbiyə olunmasından, hansı ideyalara qulluq etməsindən asılıdır. F.Köçərli adına Respublika Uşaq Kitabxanası bu mövzuda üzərinə düşən məsuliyyətdən irəli gələrək bir sıra tədbirlər təşkil edir.

Dövlət Mahnı Teatrında Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli adına Respublika Uşaq

Kitabxanası, Milli İrsi Mədəni Tarixi Araşdırmalar Fondu və "Səssiz ünsiyyət - jest dilinin inkişafına dəstək" İctimai təşkilatının birgə tərəfdaşlığı ilə jest dilinin inkişafı məqsədilə sosial yönümlü tədbir keçirildi.

Tədbirdə, 2 və 3 nömrəli Respublika Xüsusi İnternat məktəbi, SOS Uşaq Kəndinin sakinləri iştirak etdilər.

Tədbir çərçivəsində Qobu qəsəbəsindəki Qəzənfər Xalıqov adına 1 saylı məktəbin II sinif şagirdlərininin ifasında kompozisiyalar təqdim olundu.

Tədbiri giriş sözü ilə açan Ombudsman Səbinə Əliyeva qonaqları salamlayaraq, iştirakçılara uşaq hüquqları ilə bağlı məlumatlar verdi. Səbinə Əliyeva sözügedən sosial yönümlü layihəni olduqca yüksək qiymətləndirərək, jest dilinin, Brayl əlifbasının, ünsiyyətin bütün digər üsullarının rəsmi münasibətlərdə qəbulu və istifadəsinin təmin olunmasının ölkəmizin də iştirakçısı olduğu BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasının tələblərindən biri olduğunu vurğulayıb.

Çıxış edən Respublika Uşaq Kitabxanasının direktoru, Əməkdar mədəniyyət işçisi Şəhla Qəmbərova tədbirin əhəmiyyətini vurğulayaraq, əsas məqsədin jest dilinin inkişaf etdirilməsi ilə yanaşı sağlamlıq imkanları məhdud uşaqların elektron resursların vasitəsi ilə hərtərəfli inkişafına təkan vermək olduğunu açıqladı. Ş.Qəmbərova Respubluka Uşaq Kitabxanasının fəaliyyətində sağlamlıq imkanları məhdud uşaqlar üçün faydalı və səmərəli tədbir və layihələrin həyata keçirildiyini diqqətə çatdırdı.

Tədbir zamanı bütün qonaqların çıxışları eləcə də təqdim olunan kompozisiyalar sağlamlıq imkanları məhdud uşaqlar üçün jest dilinə tərcümə edildi.

Tədbirdə sağlamlıq imkanları məhdud uşaqların rəsm əsərləri də sərgiləndi.

F.Köçərli adına Respublika Uşaq Kitabxanası 20 noyabr BMT-nin Uşaq Hüquqları Konvensiyasının qəbul edilməsinin ildönümü münasibətilə ənənəvi olaraq tədbirlər təşkil edir. Bu tədbirlərdən biri ilə sizi tanış etmək istəyirəm. “Mənim hüquqlarım məni qoruyur” adlı tədbirin keçirilməsində məqsəd uşaqlara diqqətin artırılması və uşaq hüquqları ilə bağlı onlara daha ətralı məlumat verməklə maarifləndirmək idi. Tədbir Era liseyinin yuxarı sinif şagirdləri ilə aparılırdı. Tədbirdə Ombudsman Aparatının əməkdaşları iştirak edirdi. Əməkdaşlar uşaq huquqları ilə bağlı çox maraqlı söhbət etdilər, sual-cavab əsnasında qurulan tədbir çox səmimi qarşılandı. Uşaqlar onları maraqlandıran bütün suallara cavablar əldə etdilər. Tədbirdə F.Köçərli adına Respublika Uşaq Kitabxanasının rəhbərliyi çıxış edərək, respublikamızda uşaq hüquqlarının təmin olunması istiqamətində bir sıra sosial, iqtisadi və hüquqi islahatların həyata keçirildiyini, bu sahədə mühümqanunvericilik aktları və dövlət proqramlarının qəbul edildiyini tədbir iştirakçılarının diqqətinə çatdırdı. Qeyd olundu ki, bu sahədə əsas normativ sənəd 1998-ci ildə qəbul edilmiş "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunudur. Bu qanun bir sıra beynəlxalq sənədlərə, xüsusilə də "İnsan hüquqları haqqında" Ümumdünya Bəyannaməsi (1948), Uşaq hüquqları

Bəyannaməsi (1959), BMT-nin Uşaq hüquqları Konvensiyası (1989), həmçinin Uşaqların yaşaması, müdafiəsi və inkişafının təmin edilməsi üzrə Ümumdünya Bəyannaməsinə (1990) uyğun şəkildə hazırlanıb.Tədbirin sonunda uşaqlar arasında "Sənin hüquqların" adlı rəy sorğusu keçirildi. Uşaqlar kitabxana əməkdaşları tərəfindən hazırlanmış çarxlı video slaydı və "Mənim hüquqlarım" adlı kitab sərgisini da çox maraqla izlədilər. Liseyin rəhbərliyi öz növbəsində çıxış edərək bildirdi ki, son illərdə uşaqların hüquqların müdafiəsi, sağlamlığının möhkəmləndirilməsi, onların müasir tələblər səviyyəsində təhsil alması üçün ölkədə bir sıra tədbirlər həyata keçirilir. Həmçinin bu cür tədbirlərin təşkili uşaqların hüquqlarının təmin edilməsində, onların qayğı ilə əhatə olunmasında və hərtərəfli şəxsiyyət və layiqli vətəndaş kimi formalaşmasında böyük əhəmiyyət kəsb edir. Tədbirdə xatirə şəkilləri çəkildi, məktəb rəhbərliyi qonaqlara öz təşəkkürünü bildirdi.

https://clb.az/haqqimizda/videoqalereya/jest-dilin-t-rcum-edil-n-usaq-huquqlari-konvensiyasi-sasinda-hazirlanmis-elektron-kitab

Müasir insan hüquqları insanların üç əsas təbii hüququnu fərqləndirir: yaşamaq hüququ, azadlıq hüququ və mülkiyyət hüququ. Bu hüquqlar istər insan hüquqları ilə bağlı beynəlxalq müqavilə və sazişlərdə, istərsə də dövlətlərin konstitusiyalarında öz əksini tapıb. Azərbaycan Respublikasının 1995-ci ildə qəbul edilmiş Konstitusiyasında ikinci bölmə əsas insan hüquqlarını, azadlıqlarını və vəzifələrini özündə cəmləşdirir.

Ölkəmizdə insan hüquqları ilə bağlı çoxlu sayda qanunlar qəbul olunmuşdur. Bu qanunlar Azərbaycan Respublikası vətəndaşlarına geniş hüquqlar verir. Konstitusiyamızda və digər qanunvericilik aktlarında təsbit olunmuş insan hüquqları və azadlıqlarının qorunması səlahiyyətli dövlət qurumlarının əsas vəzifələrindən biridir. 2001-ci il dekabrın 28-də Milli Məclis tərəfindən Azərbaycan Respublikasının insan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında qanun qəbul edilmişdir. Həmin qanuna uyğun olaraq Azərbaycan Respublikasının insan hüquqları üzrə Müvəkkili (Ombudsman) vəzifəsi yaradılmışdır.

Ombudsmanın əsas vəzifəsi özlərini ədalətsizliyin və qanunsuzluğun qurbanları hesab edən vətəndaşların hüquqlarını qorumaqdan ibarətdir. Buna uyğun olaraq Ombudsman zərərçəkən şəxslə dövlət strukturları arasında vasitəçi kimi fəaliyyət göstərir.

Bu gün respublikamızda uşaq hüquqları beynəlxalq hüquq və ölkə qanunvericiliyi normalarına əsasən qorunur. Azərbaycan dövlətinin yeritdiyi siyasət BMT-nin Uşaq Hüquqları Konvensiyasının tələblərinə tamamilə cavab verir. Onlar daim Azərbaycan dövlətinin himayəsi və qayğısı ilə əhatə olunurlar. Ümidvarıq ki, ölkəmizin iqtisadi imkanları artdıqca cəmiyyətin ən həssas və kövrək təbəqəsi olan uşaqlara da diqqət və qayğı yüksələcəkdir.

## Ədəbiyyat siyahısı

### Kitablarda

Din və etiqad : Beynəlxalq, regional və milli hüquqi sənədlərdə. - Bakı : Elm və Təhsil, 2013. - 212 s.

Çoxşaxəli beynəlxalq hüquq. - Bakı : Elm və Təhsil, 2013. - 324 s.

### Dövrü mətbuatda

**Abdullayeva N**. Uşaq hüquqlarının həyata keçirilməsinə dair məlumat bankı yaradılır // Palitra. - 2012. - № 132. - S. 15.

**Ağa N.** Beynəlxalq uşaq hüquqları və jurnalistika peşəkarlığı // İşıq. - 2017. - № 2. - S. 58-61.

**Ağayev F.** Uşaq hüquqları aylığına yekun vurulmuşdur // Respublika. - 2019. - 28 noyabr. - № 263. - S. 5.

**Atakişiyeva G**. Uşaq hüquqları Azərbaycanda : Maarifçilərin başlatdığı yol // Azərbaycan Müəllimi. - 2017. - 27 oktyabr. - № 41. - S. 7.

Azərbaycanda uşaqlara qarşı zorakılıqla mübarizə sahəsində görülən işlər digər ölkələr üçün nümunə ola bilər : Milli Məclisdə Dünyada uşaq hüquqlarının qorunması və onlara qarşı mübarizə hallarına Azərbaycanda qoşulur // Azərbaycan. - 2012. - 1 may . - № 94. - S. 4.

Azərbaycanda uşaqların müdafiəsi islahatı üzrə milli konfrans işə başlamışdır // Xalq qəzeti. - 2009. - 23 oktyabr. - № 236. - S. 3.

Bahar Muradova: Azərbaycan dövləti uşaqların hüquqlarının qorunmasına xüsusi diqqət və qayğı ilə yanaşır // Respublika. - 2016. - 16 dekabr. - № 279. - S. 4.

**Bayramov V.** İstedadlı uşaqlar üçün xüsusi inkişaf proqramlarının hazırlanması // Xalq qəzeti. - 2014. - 4 mart. - № 47. - S. 5.

**Dövlət qurumları** uşaq hüquqlarının qorunmasında səmərəli fəaliyyət göstərirlər : Azərbaycan uşaqlarının IV Ümumrespublika forumu keçirilib // İki sahil. - 2017. - 21 noyabr. - № 212. - S. 8.

**Əliyev R.** Azərbaycanda uşaq hüquqlarının qorunmasına xüsusi önəm verilir : Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədr müavini Rauf Əliyevin www.yap.org.az saytına müsahibəsi // Yeni Azərbaycan. - 2016. - 2 iyun. - № 98. - S. 6.

**Əliyeva M.** 25 may Beynəlxalq İtkin Uşaqlar Günüdür : Uşaqların fiziki və mənəvi inkişafı ölkəmizdə dövlət

siyasətinin əsas istiqamətlərindən biridir // Respublika. - 2022. - 25 may. - № 109. - S. 10.

**Əmircanov P**. Dünyanı qoruyaq uşaqlar üçün... : 1 İyun Uşaqları Beynəlxalq Müdafiə Günüdür // Xalq qəzeti. - 2013. - 1 iyun. - № 119. - S. 5.

**Fərəcova Z.** Böyüklərin məhv etdikləri dünyanın balaca, məsum sakinləri : 4 iyun Beynəlxalq Aqressiya Qurbanı olan Uşaqlar Günüdür // Azərbaycan : qəzet. - 2022. - 4 iyun. - № 116. - S. 6.

**Hüseynova H**. Uşaq hüquqları: dünəndən bu günə // Yeni Azərbaycan. - 2018. - 5 iyun. - № 106. - S. 5.

**Hüseynova H**. Uşaq hüquqlarının müdafiəsi dövlətin prioritet istiqamətlərindəndir : 1iyun Uşaqları Beynəlxalq Müdafiə Günüdür // Respublika. - 2014. - 1 iyun. - № 114. - S. 2.

**Hüseynova H**. Uşaq hüquqlarının təmin olunması dövlətin əsas məqsədləri sırasındadır : Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynovanın www.yap.org.az saytına müsahibəsi // İki sahil. - 2017. - 1 iyun. - № 96. - S. 14.

**Quliyev A.** Uşaqların fiziki və mənəvi inkişafında idmanın rolu // Savalan. - 2009. - 24-30 noyabr. - № 52. - S. 2.

**Qurbanov Ə.** Uşaqlara qarşı zorakılığın aradan qaldırılması // Savalan. - 2010. - 26 30 noyabr. - № 56/57. - S. 5.

**Mənsimov E**. Azərbaycanda uşaq hüquqlarına dövlət tərəfindən təminat verilir // Azərbaycan : qəzet. - 2015. - 19 noyabr. - № 254. - S. 8.

**Mənsimov E.** Gələcəyimiz olan uşaqları qoruyaq : 1 İyun Uşaqları Beynəlxalq Müdafiə Günüdür // Azərbaycan. - 2013. - 2 iyun. - № 119. - S. 6.

**Müşfiqə.** Cocuqların günahı nə? : Hər 6 uşaqdan 1-i müharibə şəraitində yaşayır // Yeni Azərbaycan. - 2022. - 4 iyun. - № 98. - S. 7.

**Nərimanoğlu M.** Onlar səadət və xoşbəxtlik rəmzi olsalar da... // Azərbaycan : qəzet. - 2019. - 20 noyabr. - № 257. - S. 7.

**Ömərov V.** Beynəlxalq sənədlər uşaq hüquqları haqqında // Səs. - 2018. - 29 iyun. - № 120. - S. 13.

**Ömərov V**. İnsan alveri ilə mübarizə sahəsində QHT-lərin rolu // Səs. - 2020. - 14 fevral. - № 30. - S. 15.

**Ömərov V**. Küçə uşaqları problemi və uşaqların hüquqlarının müdafiəsinə dair dövlət siyasəti // Səs. - 2018. - 14 iyul. - № 131. - S. 15.

**Ömərov V**. Qərbdə uşaq hüquqlarının vəziyyətinə dair // Səs. - 2018. - 1 avqust. - № 143. - S. 15.

**Ömərov V**. Uşaq hüquqları beynəlxalq qanunlarda // Səs. - 2018. - 3 iyul. - № 122. - S. 15.

**Ömərov V**. Uşaq hüquqları haqqında Konvensiyada uşaq hüquqlarının müdafiəsi məsələləri // Səs. - 2018. - 28 iyun. - № 119. - S. 13.

**Ömərov V.** Uşaq Hüquqları Komitəsi // Səs. - 2018. - 30 iyun. - № 121. - S. 13.

**Ömərov V**. Uşaq hüquqlarının müdafiəsi sahəsində beynəlxalq nəzarət // Səs. - 2018. - 22 iyun. - № 116. - S. 15.

**Ömərov V**. Uşaq hüquqlarının müdafiəsi tarixindən // Səs. - 2018. - 1 iyun. - № 104. - S. 15.

**Ömərov V.** Uşaq hüquqlarının müdafiəsinin əsas istiqamətləri // Səs. - 2018. - 15 avqust. - № 153. - S. 15.

**Ömərov V.** Uşaqların hüquqlarının müdafiəsi günü // Səs. - 2018. - 31 may. - № 103. - S. 15.

**Ömərov V.** Uşaqların hüquqlarının müdafiəsinə dair BMT sənədləri // Səs. - 2018. - 15 iyun. - № 114. - S. 15.

**Ömərov V.** Uşaqların istismarı // Səs. - 2020. - 18 fevral. - № 32. - S. 15.

**Ömərov V**. Uşaqların öz hüquqlarını bilmək və öyrənmək yolları // Səs. - 2018. - 30 iyun. - № 121. - S. 15.

**Ömərov V**. Uşaqların sağlamlıq və təhsil hüququ // Səs. - 2018. - 17 iyul. - № 132. - S. 15.

**Ömərov V**. Uşaqların tibbi hüquqları // Səs. - 2019. - 22 iyun. - № 111. - S. 15.

**Ömərov V**. Valideyn və uşaqların münasibətlərinin tənzimlənməsi // Səs. - 2018. - 13 iyul. - № 130. - S. 15.

**Səbri H**. Uşaqların təlim-tərbiyəsi : ailə və uşaq tərbiyəsi // İşıq. - 2014. - № 3. - S. 10-13.

**Süleymanova E**. Gələcəyimiz naminə uşaqlara qayğı // Respublika. - 2016. - 20 noyabr. - № 257. - S. 4.

**Süleymanova E.** Uşaq hüquqlarının müdafiəsi dövlət siyasətinin prioritet istiqamətidir : "Uşaq hüquqları" aylığına yekun vurulmuşdur // Respublika. - 2015. - 20 noyabr. - № 255. - S. 7.

**Süleymanova E**. Uşaq hüquqlarının müdafiəsi və təşviqi dövlətimizdə ali məqsədlərdəndir // Respublika. - 2018. - 23 noyabr. - № 262. - S. 6.

**Süleymanova E.** Uşaqların hüquqlarının müdafiəsi hər birimizin borcudur // Respublika. - 2017. - 19 noyabr. - № 254. - S. 4.

Uşaq hüquqları ilə bağlı Ombudsmanın keçirdiyi müsabiqənin qalibləri mükafatlandırılmışdır // Savalan. - 2009. - 24-30 noyabr. - № 52. - S. 3.

Uşaq Hüquqları Konvensiyasının əsas prinsipləri Azərbaycanda tətbiq edilir // Savalan. - 2015. - 27-30 noyabr. - № 80. - S. 1.

# Xoşbəxt uşaqlar xoşbəxt gələcək deməkdir

**Komputer yığımı**
**və dizayn:** **Ruhiyyə Məmmədli**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**

**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**